# Yüksək rifah cəmiyyətinin qurulması prioritet istiqamətdir

## Son 17 il ərzində ölkədə yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə düşüb

Son illərdə artan iqtisadi güc Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir böyük layihələrin təşəbbüskarı olmaq imkanı verib. Ölkə regional iqtisadiyyatın lokomotivi olaraq dünyanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından birinə çevrilib. Bütün bunlar Azərbaycanın regionda iqtisadi rolunu yüksəldib, xarici təsirlərə davamlı olmasına və müstəqil dövlət kimi suverenliyinin güclənməsinə möhkəm zəmin yaradıb.

Bununla bərabər, uzun müddətdir ki, qlobal bəlaya çevrilən koronavirus pandemiyası ilə aparılan səmərəli mübarizə, ümumdövlət məqsədləri naminə həmrəylik təcrübəsi və ərazi bütövlüyünün bərpası irimiqyaslı və dərin islahatların aparılmasına zəruri əsasları gücləndirib. Əvvəlki illərdə reallaşdırılan islahatlar hesabına respublikanın sosial-iqtisadi potensialı artıb, iqtisadiyyatın xarici təsirlərə dözümlülüyü yaxşılaşıb. Azərbaycanda sosial-iqtisadi quruculuq tədbirləri və ərazi bütövlüyünün təmini uzunmüddətli dövrdə Azərbaycanın daha keyfiyyətli inkişaf mərhələsinə keçməsinə, sürətlə inkişaf edən, yüksək rifaha malik lider dövlət olmasına müsbət təsir göstərib.

Azərbaycanda pozitiv demoqrafik artım şəraitində yoxsulluq səviyyəsinin əhəmiyyətli dərəcədə azaldılması ölkəmizdə bu istiqamətdə həyata keçirilən tədbirlərin, eləcə də BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin daim diqqət mərkəzində saxlanmasının məntiqi nəticəsidir. Yeri gəlmişkən, Dayanıqlı İnkişaf Məqsədləri dünyada həyat səviyyəsini yüksəltmək, bərabərsizliyi azaltmaq, dayanıqlı iqtisadi inkişafa təkan vermək kimi vəzifələrin icrasını nəzərdə tutur.

Azərbaycan bu strategiyanın reallaşdırılmasına mühüm önəm verilməsinin nəticəsidir ki, ötən il üzrə Dayanıqlı İnkişaf Hesabatında əks olunan Dayanıqlı İnkişaf Hesabatı İndeksinə görə Azərbaycan 166 ölkə arasında 54-cü pillədə qərarlaşıb. Halbuki bu göstəriciyə görə, Rusiya 57-ci, Gürcüstan 58-ci, Qazaxıstan 65-ci, Türkiyə 70-ci, Ermənistan isə 75-ci yerlə kifayətlənib.

Beynəlxalq Valyuta Fondunun statistikasına görə, hazırda Cənubi Qafqaz regionunun ümumi iqtisadiyyatının 70 faizinə sahib olan Azərbaycan BMT-yə iki dəfə könüllü milli hesabat təqdim edən azsaylı ölkələrdən biridir. Bu da, öz növbəsində, ölkəmizdə uğurla reallaşdırılan şəffaflıq strategiyasının nəticəsi kimi dəyərləndirilə bilər. BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri sırasında birinci istiqamət kimi "Yoxsulluğa son" göstərilib.

Ölkəmizdə uğurla reallaşdırılan inkişaf strategiyası nəticəsində Azərbaycanda yoxsulluq son 17 il ərzində 49 faizdən 5 faizə enib. "Bərabərsizliyin azaldılması" məqsədinə gəlincə, Azərbaycan gəlirlərin ədalətli bölgüsünün səviyyəsinə görə dünya üzrə ən yüksək pillələrdədir.

Burada belə bir statistik göstəricini də qeyd etmək yerinə düşər ki, dövlət büdcəsi sosial və iqtisadi inkişafyönümlü olmaqla, son 17 ildə 4 dəfədən çox artaraq onun həcmi ümumi daxili məhsulun 35 faizinə çatıb. Azərbaycan ortagəlirli ölkələr sırasına daxil olub. Müqayisə üçün xatırladaq ki, dünya praktikasında ortagəlirli dövlətə çevrilməyə orta hesabla 11 il vaxt sərf edilib. Hazırda Azərbaycan dünyada orta-yuxarı gəlirli 56 ölkədən biri kimi qərarlaşıb.

Azərbaycanın təkcə qeyri-neft ümumi daxili məhsulunun həcmi Gürcüstan və Ermənistanın birlikdə ümumi daxili məhsulu qədərdir. Ölkənin qeyri-neft iqtisadiyyatı əsasən daxili bazarın genişlənməsi hesabına böyüsə də, hazırda xarici bazarların payının ilbəil artması da müşahidə olunur. Belə nailiyyət dünya iqtisadiyyatının 41 faizini təşkil edən inkişafda olan ölkələr arasında əhəmiyyətli dərəcədə möhkəmlənmək üçün geniş imkanlar yaradıb.

Azərbaycanda aparılan sosial-iqtisadi islahatlar, əldə edilən makroiqtisadi sabitlik və yoxsulluğun aşağı olması həyat səviyyəsinə müsbət təsir göstərir. Respublikamızda müasir həyat üçün ən qabaqcıl infrastruktur və təminat mövcuddur. Azərbaycanın dünya iqtisadiyyatına sürətli inteqrasiyası ixracın genişlənməsini şərtləndirir, bu şəraitdə ticarət tərəfdaşlarının sayı isə ilbəil artır. Hazırda dünyanın 180 ölkəsi ilə ticari-iqtisadi əlaqələr həyata keçirilir. Xarici bazarda rəqabətin kəskinləşməsinə baxmayaraq, ölkə məhsul ixracında öz payını qoruyur və bu paya görə Azərbaycan 192 dövlət arasında ilk 70-likdə qərarlaşıb. Əlverişli biznes mühiti və iqtisadiyyatın rəqabət qabiliyyəti adambaşına gəlir səviyyəsinin artmasına nail olmaq üçün əsas şərt rolunu oynayıb. "Doing Business"in göstəricisinə görə, Azərbaycan 190 dövlət arasında 34-cü, Qlobal Rəqabətlilik İndeksinə görə isə 58-ci yerdə qərarlaşıb.



***Müstəqil Azərbaycan bu gün sosial-iqtisadi, siyasi və mədəni inkişafının yeni mərhələsini yaşayır. Ölkədə milli iqtisadiyyatın güclənməsini və müasirləşməsini təmin etmək məqsədilə sosial-iqtisadi islahatlar həyata keçirilir. Bunun nəticəsində iqtisadiyyatın həcmi getdikcə böyüyür, infrastruktur yenilənir və güclənir. Pozitiv demoqrafik artım şəraitində yoxsulluq səviyyəsi əhəmiyyətli dərəcədə azalır, maliyyə imkanları genişlənir və nəhayət, Azərbaycan yuxarı orta gəlirli dövlətlər qrupunda möhkəmlənir.***

Burada bir məqamı da xatırlatmaq istərdik. COVID-19 pandemiyası son bir il ərzində dünya iqtisadiyyatına təsirsiz ötüşməyib. Əlbəttə, dünyanın ayrılmaz hissəsi olan Azərbaycan da bu bəladan zərər görüb. Lakin dövlətimiz digər ölkələrə nisbətən bu vəziyyətdən daha az itkilərlə çıxıb, iqtisadiyyatımız təqribən 4 faizdən bir qədər çox azalıb. Amma bunun əvəzində qeyri-neft sənayesi 11 faizdən çox artıb. Buna isə real iqtisadiyyatın, qeyri-neft iqtisadiyyatının inkişafı ilə nail olunub.

Qlobal pandemiyanın mənfi təsirlərinə baxmayaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin dayanıqlılığı və inkişafı reallaşıb. Ötən il pandemiya ilə əlaqədar məşğulluq və sosial rifaha dəstək məqsədilə 5 milyon nəfəri əhatə edən 4 istiqamət üzrə 12 tədbirin həyata keçirilməsinə, 6 dəfə 190 manat birdəfəlik ödəmə proqramının gerçəkləşdirilməsinə milyardla manat vəsaitin xərclənməsinə, müharibənin aparılmasına və digər xərclərin olmasına baxmayaraq, ölkəmizin qeyri-neft sektoru ilə yanaşı, kənd təsərrüfatı 2 faiz artıb, valyuta ehtiyatlarımız qorunub, orta əməkhaqqı və orta pensiya təqribən 13-14 faiz yüksəlib. Bu il üçün isə qanunlara edilən əlavə və dəyişikliklərlə şəhid ailələrinə, Qarabağ əlillərinə veriləcək təqaüdlər 50-70 faiz artırılıb.

Bütün bunlar dövlətin siyasətinin mərkəzində insan amilinin dayanmasından, Prezident İlham Əliyevin sosial müdafiə tədbirlərini həyata keçirməklə əhalinin sosial rifah halını daha da yaxşılaşdırmaq məqsədini daim diqqət mərkəzində saxlamasından xəbər verir. Dövlətimizin başçısı tərəfindən səsləndirilən "Pandemiyadan sonrakı dövrdə bizim əsas prioritetlərimiz – iqtisadi inkişafı, iqtisadi və maliyyə sabitliyini təmin etmək, sağlam və rəqabətqabiliyyətli insan kapitalını daha da inkişaf etdirmək, dayanıqlı iş yerləri yaratmaq və iqtisadi fəaliyyətin yeni sahələrini inkişaf etdirməkdən ibarətdir" kimi fikirləri də bunun bariz ifadəsidir.

Hazırda müstəqil və suveren Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olub. Ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən yeni strateji dövrdə dərin struktur-institusional islahatlar hesabına yüksək iqtisadi artım mənbələrinin tapılması vasitəsilə Azərbaycan dövlətinin qüdrətinin daha da artırılması, yüksək rifah cəmiyyətinin qurulması, azad edilmiş bölgələrə tarixi qayıdış və əbədi məskunlaşmanın təmin edilməsi qarşıya mühüm vəzifə kimi qoyulub.

Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Sərəncamı da qarşıdakı dövrdə respublikamızın əsas sosial-iqtisadi inkişaf istiqamətlərini və buna uyğun milli prioritetlərini müəyyənləşdirməklə əldə olunan uğurların miqyasının, həmçinin həcminin genişləndirilməsi məqsədi daşıyır.

Sənəddə uzunmüddətli dövrdə iqtisadi artımın sağlam və tarazlı olmasının önəmi, həmçinin belə iqtisadi artımın ölkənin davamlı inkişafı üçün möhkəm zəmin yaradacağı vurğulanıb. Eyni zamanda, bu prioritetin səmərəli həyata keçirilməsi üçün iki məqsədin–davamlı və yüksək iqtisadi artımın, daxili və xarici təsirlərə dayanıqlığın təmin olunması nəzərdə tutulub.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də bildirilir ki, iqtisadi artım vətəndaşların həyatına təsir göstərən başlıca amillərdən biridir. Ona görə də iqtisadiyyatı davamlı və yüksək templərlə artırmaqla ölkədə adambaşına düşən milli gəlirin yüksək səviyyəsinə nail olunmalıdır. İqtisadi artım yüksək gəlirli iş yerləri yaratmaqla həyat səviyyəsinin ilbəil yaxşılaşmasını təmin etməlidir.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də yüksək və ədalətli sosial təminatın, inklüziv cəmiyyətin inkişafı prioritet istiqamət kimi nəzərdə tutulub. Bunun üçün ölkədə yoxsulluq səviyyəsinin minimuma endirilməsi və aşağı işsizlik səviyyəsi, eləcə də yoxsul təbəqənin ehtiyaclarının qarşılanmasına yönələn ünvanlı yardımların əhatə dairəsinin genişləndirilməsi hesabına vətəndaşların sosial müdafiəsinə əlavə imkanlar yaradılması qarşıya mühüm vəzifə kimi qoyulub. Eyni zamanda, aşağıgəlirli və yoxsulluğa həssas təbəqənin, əlilliyi olan şəxslərin, o cümlədən, sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların sosial müdafiəsi və sosial təminatının gücləndirilməsi, bu məqsədlə ölkədə pensiya, müavinət, təqaüd və digər sosial ödənişlərin minimum məbləğlərinin layiqli səviyyəsinə nail olunması, pensiya təminatı sisteminin uzunmüddətli inkişafı üçün onun maliyyə dayanıqlığının gücləndirilməsi, pensiya məbləğinin ödənilən sığorta haqqına mütənasibliyinin artırılması strateji məqsədlər sırasına daxil edilib.

Milli Prioritetlərdə vətəndaşların uzunömürlülüyünün və sağlam həyat tərzinin təmin edilməsinə də böyük əhəmiyyət verilib. Çünki bu, insanların məhsuldar fəaliyyəti və sosial rifahının artırılması üçün mühüm amildir. Sağlamlıq və uzunömürlülük ölkədə səhiyyə sisteminin keyfiyyətindən birbaşa asılı məsələdir. Ona görə də müasir innovasiyaların səhiyyədə tətbiqi sahəsində yüksək nəticələr əldə edilməklə, keyfiyyətli səhiyyə xidmətlərinin milli gəlirin yaranmasında payı artırılmalıdır.

***V.BAYRAMOV, "Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 21 fevral.- S.4.